*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (4) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.03.2024*
*Kabul tarihi |Accepted:10.07.2024*
*Yayın tarihi |Published:25.08.2024*

**Şahlar Şərifov**

https://orcid.org/0000-0002-0395-5174
*Docent, Dr., leading researcher, Doctor of Philosophy of the History Institute named after A.A. Bakıkhanov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, shahlarsharifov@gmail.com*

*Atıf Künyesi | Citation Info*
Şərifov, Ş. (2023). Azərbaycanın Beyləqan Şəhərinin Erkən Orta Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (4), 2167-2180. https://doi.org/10.46868/atdd.2024.698

# Azərbaycanın Beyləqan Şəhərinin Erkən Orta Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə

***Öz***

*Tarixdə qədim dövlətləri ilə tanınan Azərbaycanın, şəhərlərinin tarixi də qədimdir. Azərbaycanın qədim şəhərlərindən biri də Beyləqan şəhəridir. Tarixi və coğrafi mövqeyinə, iqtisadi əhəmiyyətinə görə Beyləqan orta əsrlərdə Azərbaycanla yanaşı, Yaxın və Orta Şərqin də məşhur şəhərlərindən biri olmuşdur. Ərəbdilli müəlliflərindən Belazuri, əl-İstəxri, Yaqubi, Teberi, Əsəm əl-Kufi, Feqih, İbn Xordadbeh, İbn Havqəl, el-Muqeddesi və başqaları Beyləqan haqqında ətraflı məlumat vermişlər. Ərəbdilli müəlliflərin verdikləri məlumatlardan aydın olur ki, şəhərdə bir çox məşhur alimlər yaşamışdır. Onlardan Mucir əl-Beyləqanini, Əbu Əhməd Zəki ibn Həsən ibn Ömər əl-Beyləqanini, Şəmsəddin Əbu Tahir Zəki ibn Hüseyn ibn Ömər əl-Beyləqanini, Müəyyinəddin Əbu Əli Əyyub ibn Əhməd ibn əl-Əziz əl-Beyləqanini, Əbul-Fərəc Məsud ibn Əhməd ibn Mahmud əl-Beyləqanini, Əbu Cəfər Məhəmməd ibn Həsən əl-Beyləqanini, Əbdülməlik ibn Əhməd ibn Əbdülməlik ibn Əbdikan əl-Beyləqanini, Əbul-Fəzl Hibətullah ibn Əbul-Qasım ibn Hibətullah ibn Yaqub əl-Beyləqanini qeyd edə bilərik. Mənbələrdə beyləqanlı yazarların nisbəsinin "əl-Beyləqani" kimi də yazıldığının şahidi oluruq. Ərəbdilli mənbələrdə Beyləqan böyük, məhsuldar, hasarlarla əhatələnmiş, strateji baxımdan əhəmiyyətli bir şəhər kimi qeyd olunur. Digər şəhərlər kimi Beyləqan şəhəri də yerli feodallar və gəlmə ərəblər tərəfindən idarə edilirdi. Feodalların bəziləri əldə etdikləri gəlirləri sələmə verərək böyük gəlir toplayırdılar. Feodalların torpağında yaşayan və torpağı becərən kəndlilərdən torpaq vergisini mübaşirlər toplayırdılar.*

BY NC
Creative Commons Licence

***Açar sözlər:*** *Azərbaycan, Raşidi xəlifələri, ər-Ran, Beyləqan, Ömər ibn Xəttab, Osman ibn Əfvan, Salman ibn Rəbiə*

# Early Medieval History of Beylegan City of Azerbaijan in Arabic Language Sources

***Abstract***

*The cities of Azerbaijan, known for its ancient states in history, also have an ancient history. Beylegan is one of the ancient cities of Azerbaijan. Due to its historical and geographical location and economic importance, Beylegan was one of the famous cities of the Near and Middle East along with Azerbaijan in the Middle Ages. Arabic language authors al-Balazuri, al-Istakhri, al-Yaqubi, al-Tabari, Asam al-Kufi, Ibn al-Faqih, Ibn Khordadbeh, Ibn Hawqal, al-Muqaddasi and others gave detailed information about Beylegan. It is understood from the information provided by Arab writers that many famous scientists lived in the city. Among them are Mujir al-Beylegani, Abu Ahmad Zaki ibn Hasan ibn Hasan ibn Umar al-Beylegani, Shamsuddin Abu Tahir Zaki ibn Hussein ibn Umar al-Beylegani, Muayyinuddin Abu Ali Ayyub ibn Ahmad ibn al-Aziz al-Beylegani, Abul-Faraj Masud Ibn. Ahmed Ibn Mahmud al-Beylegani, Abu Ja'far Muhammad Ibn Hasan al-Beylegani, Abdulmalik ibn Ahmad Ibn Abdulmalik Ibn Abdikan al-Beylegani, Abul-Fazl Hibatullah Ibn Abul-Qasim Ibn Hibatullah Ibn Yaqub al-Beylegani. In the sources, we witness that the number of writers from Beylegan is also written as 'al-Beylegani'. Arab sources refer to Beylegan as a large, fertile, walled and strategically important city. Like other cities, Beylegan was ruled by local feudal lords and foreign Arabs. Some of the feudal lords earned large incomes by distributing their revenues. The land tax was collected from the peasants living and cultivating the land of the feudal lords.*

***Keywords:*** *Azerbaijan, Rashid caliphs, Ran, Beylegan, Umar Ibn Khattab, Uthman Ibn Afwan, Salman Ibn Rabia*

## Giriş

Cənubi Qafqazın böyük bir hissəsini və müasir İranın şimal-qərb hissələrini əhatə edən Azərbaycanın tarixi hüdudları bu və ya digər səbəblərlə əlaqədar olaraq müxtəlif dövrlərdə dəyişikliklərə məruz qalmışdır. XIX əsrin əvvəllərində Rusiya ilə Qacarlar arasında imzalanmış Türkmənçay müqaviləsi ilə Azərbaycan ərazisinin iki yerə bölünməsi nəticəsində artıq elmi ədəbiyyatda və siyasi sənədlərdə "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan" məfhumları tez-tez işlədilməyə başlanmışdı. "Şimali Azərbaycan"la "Cənubi Azərbaycan" arasındakı sərhəd əsas etibarı ilə Araz çayı hesab olunur. Buna baxmayaraq qədim və orta əsrlər dövründə əhali arasında "Arazın cənubu" və "Arazın şimalı", "Yaxın Azərbaycan" (Cənubi Azərbaycan) və "Ucqar Azərbaycan" (Şimali Azərbaycan) ifadələri tez-tez işlədilirdi (Ağayev, 2017, s. 24).

Tarixən təbii-coğrafi, etno-siyasi və sosial-mədəni baxımdan həm zəngin, həm də olduqca əhəmiyyətli bölgələrdən biri hesab olunan Azərbaycan və onun şəhərləri haqqında müxtəlif coğrafiyaşünaslar, səyyahlar, tarixçilər tərəfindən əhəmiyyət kəsb edən məlumatlar verilmişdir.

Qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan və şəhərləri haqqında istər antik mənbələrdə, istərsə də orta əsrlər dövrü ərəbdilli-farsdilli mənbələrdə zəngin məlumatlara rast gəlinir. Bu tarixi qaynaqlarda Azərbaycanın qədim şəhərləri olan Təbriz, Marağa, Naxçıvan, Bakı, Beyləqan, Gəncə, Şamaxı, Tiflis, Ərdəbil, Şəmkir, Bərdə, Qəbələ, Şabran, Dəbil və digər şəhərlərin təbii-coğrafi şəraiti, etno-siyasi durumu, sosial-iqtisadi və mədəni həyatı haqqında geniş məlumatlar verilir. Azərbaycan tarixşünaslığında da Azərbaycan şəhərləri haqqında olduqca əhəmiyyətli elmi tədqiqat əsərləri yazılmış və yazılmaqdadır.

Bir sıra Azərbaycan tarixçiləri və şərqşünasları öz tədqiqatlarında ərəbdilli coğrafiya-çıların və tarixçilərin əsərlərinə müraciət etməklə yanaşı bu mənbələrin əhəmiyyətini xüsusi olaraq qeyd etmişlər. Belə tədqiqatlar sırasında ilk növbədə akademik Z. M. Bünyadovun (Bünyadov, 1989; Bünyadov, 2007), M. X. Şəriflinin (Şərifli, 2015), S. B. Aşurbəylinin (1983), akademik N. M. Vəlixanlının (Vəlixanlı, 2005; Vəlixanlı, 2016; Vəlixanlı, 1974; Vəlixanlı, 1993), N. A. Əliyevanın (Əliyeva, 2017; Əliyeva, 2020), R. Ə. Ağayevin (Ağayev, 2017) və R. Ə. Mustafanın (2019) əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Orta əsr ərəbdilli müəllifləri (İbn Misqəveyh, əl-İstəxri, Əsəm əl-Kufi, Teberi, İbn Havqəl, əl-Məsudi, Qudama ibn Cəfər, el-Muqeddesi, Belazuri, İbn Xordadbeh, Yaqubi, El-Hemevi, və başqaları) Ərəb xilafəti dövründə Azərbaycanda mövcud olmuş şəhərlər haqqında maraqlı məlumatlar verirlər. İlkin yazılı qaynaqlardan əldə etdiyimiz məlumatlara görə, Azərbaycan şəhərləri əsas etibarilə xarici hücumlardan qorunmaq məqsədilə hasar və xəndəklərlə əhatə olunurdu. Orta əsrlər Azərbaycan şəhərlərinin əksəriyyəti öz dövrünün iqtisadi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatında mühüm rol oynayan mədəni mərkəzlər olmuşdur. Ərəbdilli mənbələrdə haqqında geniş məlumat verilən Azərbaycanın qədim və orta əsr şəhərlərindən biri də Beyləqan şəhəridir. Azərbaycanın qədim şəhərlərindən olan Beyləqan, orta əsrlərdə inkişaf etmiş şəhərlərdən biri hesab olunurdu. Azərbaycan xalqının çoxəsrlik tarixində mühüm rol oynayan qədim və orta əsr şəhərlərimizin tarixindən bəhs edən müxtəlif dillərdə olan saysız-hesabsız mənbələr Azərbaycan və ümumqafqaz tarixini araşdırmaq üçün əhəmiyyət kəsb etməkdədir.

## I. Beyləqan şəhəri ərəbdilli mənbələrdə (VIII-X əsrlər)

Ərəb işğallarından bəhs edən mənbələrdə Arrana məxsus şəhərlər sırasanda Bərdə və Şəmkir ilə yanaşı Beyləqandan da bəhs olunur. Əldə eydiyimiz məlumatlara əsasən tarixi qədimliyinə və inkişaf xüsusiyyətinə görə fərqlənən Azərbaycanın orta əsr şəhərlərindən biri də Beyləqan şəhəridir.

Orta əsr Azərbaycan şəhərləri haqqında məlumat verən İbn Xordadbeh, Belazuri, Feqih, Yaqubi, Zekeriyye el-Qezvini, İbn Misqeveyh və El-Hemevi kimi bir çox ərəbdilli müəlliflər onların salınma tarixini Sasani şahları I Qubadın və oğlu Xosrovun dövrünə aid edirlər. Orta əsrlərin ərəbdilli tarixçilərdən olan Belazuri bu barədə belə yazır*:*

*"Tez-tez hücum edən xəzərlər əd-Dinavərə qədər gedib çıxırdılar. Buna görə Sasani hökmdarlarından olan I Qubad Arranda Beyləqanı, Bərdəni, Qəbələni tikdirdi. Sonra Şirvanla Bab əl-Lan arasında çiy kərpicdən sədd çəkdirdi. Oğlu Ənuşirvan Şabran şəhərini, Məsqət şəhərini, sonra dağ yolu üstündə tikildiyi üçün Əbvab "qapılar" adlandırılan Bab əl-Əbvab şəhərlərini inşa etdirdi. Arran torpağında isə Şəkkan, Kəmibəran və Dudaniyə qapılarını saldırdı. Curzan vilayətində Suğdəbil şəhərini saldıraraq soğdluları və farsları oraya köçürdü. Ən-Nəşavə şəhəri ilə yanaşı, əs-Sisəcan ərazisində Veys qalasını, eləcə də əl-Kiləb və əş-Şəhabuş qalalarını tikdirdi"* (Belazuri, 1987, s. 273-274; Belazuri, 1866, s. 194-195).

Tarixi mənbələrdən əldə etdiyimiz məlumatlara əsasən Xəzərlərə qarşı ciddi tədbir görən ilk Sasani şahı I Qubad (446-531) olmuşdur. Onun sərkərdələrindən biri Dinavərədək gəlib çıxan xəzərləri təqib edərək, Curzan (Gürcüstan) və Arranı onlardan geri almışdı. Sonra, Arran ölkəsinə daxil olaraq ər-Ras adı ilə məşhur olan çayla (Araz çayı) Şirvan arasında olan bütün torpaqları ələ keçirmişdir (İbn Xordadbeh, 1889, s. 122). Daha sonra Arrana gələn I Qubadın özü, burada Beyləqan, Bərdə, Qəbələ, Bab əl-Əbvab (Dərbənd) və Şəki şəhərlərini salaraq möhkəmləndirmişdi (İbn Xordadbeh, 1889, s.122; Bünyadov, 2007, s. 52). I Qubad Şirvandan tutmuş Bablan adlanan keçidə qədər çiy kərpicdən hasar çəkməyə başladı. Bu hasarın tikintisini başa çatdıran Qubadın oğlu I Xosrov Ənuşirəvan (531-578), daha şimala doğru Bab əl-Əbvab şəhərini möhkəmləndirmişdi (Belazuri, 1866, s. 194).

Qeyd etdiyimiz kimi tarixi qədimliyinə və strateji mövqeyinə görə fərqlənən orta əsr Azərbaycan şəhərlərindən biri də Beyləqan şəhəridir. Beyləqan şəhəri orta əsrlərdə mühüm ticarət yollarından biri olmuşdur. Şərqdən Ərdəbilə gedən karvan ticarət yolu buradan Beyləqana və Bərdəyə gəlir, daha sonra isə Gəncə və Şəmkirdən keçərək Tiflisə gedirdi. Azərbaycanın orta əsr şəhərlərindən olan Beyləqan şəhəri Raşidi xəlifələrindən olan Osman ibn Əfvanın (644-656) xilafəti dövründə məşhur ərəb sərkərdəsi Salman ibn Rəbiə əl-Bahili tərəfindən ələ keçirilmiş və yerli əhali ilə sülh bağlanmışdır (Yaqut el-Hemevi, 1977, I, s. 533).

Xəlifə Ömər ibn Xəttabın vəfatından sonra Azərbaycan əhalisi müqavilənin şərtlərini pozduğu üçün xəlifə Osman ibn Əfvan bölgəyə yeni ordu göndərdi. 645-ci ildə Kufə canişini Vəlid ibn Uqbənin başçılığı altında olan xilafət qoşunları Taylasana və Muğana yürüş etdilər.

Vəlid ibn Uqbə bu vilayətlərin əhalisi ilə hicri 22-ci ildə Hüzeyfə ibn Yəmanın onlarla bağladığı sülhün şərtləri əsasında müqavilə bağladı (Belazuri, 1987, s. 457; Teberi, 1967, IV, s. 246-247).

Cənubi Azərbaycanın böyük bir hissəsinin tabe edilməsindən sonra xəlifə Ömər ibn Xəttabın hakimiyyətinin son dövrlərində başlayan Arran bölgəsinin istilası Salman ibn Rəbiə əl-Bahili və Həbib ibn Məsləmə əl-Fihrinin komandanlığındakı ordular tərəfindən Osman ibn Əfvanın (644-656) zamanında da davam etdirilmişdir. Mərkəzi şəhər Bərdənin 645-ci ildə ələ keçirilməsi (Belazuri, 1987, s. 285-286) ilə İslam hakimiyyətinə daxil olan bölgə həmin tarixdən etibarən müsəlmanların ətraf ərazidəki qərargah şəhərinə çevrilmişdi. Arranın Beyləqan, Şəmkir, Qəbələ və digər mərkəzi şəhərlərinin tabe edilməsi həm Xəzər dənizində mühüm liman şəhəri olan Bab əl-Əbvabın ələ keçirilməsinə, həm də bölgədə Bizansın daimi müttəfiqi sayılan Xəzərlərə qarşı mübarizədə hərbi mərkəz rolunu oynamasına şərait yaratmışdı.

645-ci ildə xəlifə Osman ibn Əfvan gözlənilən hücum təhlükəsi xəbərini alaraq Bizans istiqamətində vuruşan Həbib ibn Məsləməni suriyalılardan ibarət altı minlik və Salman ibn Rəbiə əl-Bahilini isə kufəlilərdən ibarət altı minlik ordu ilə Ərməniyə torpaqlarına hərbi yürüşə göndərdi (Belazuri, 1987, s. 277-278; Teberi, 1967, IV, s. 248-249). Hərbi yürüşə başlayan ordu Ərməniyədə bəzi bölgələrin tabe edilməsindən sonra Azərbaycan sərhəddindəki Dəbil (Dvin) şəhərini ələ keçirib əhalisi ilə cizyə vergisi qarşılığında can, mal və din azadlığının tömininə dair müqavilə bağladı (Belazuri, 1987, s. 282). Ərməniyənin şimalında strateji və coğrafi cəhətdən böyük əhəmiyyət kəsb edən bu şəhərin ələ keçirilməsindən sonra Naxçıvan da sülh yolu ilə tabe edildi və Dəbil xalqı ilə bağlanmış müqavilənin şərtlərinə uyğun cizyə və xərac qarşılığında müqavilə imzalandı (Belazuri, 1987, s. 282). Naxçıvan və Dəbilin ələ keçirilməsindən sonra Həbib ibn Məsləmə ilə Salman ibn Rəbiə əl-Bahili yürüşü müxtəlif istiqamətlərdə davam etdirdilər. Həbib ibn Məsləmənin başçılığı altında olan ordu Curzan istiqamətində şimala doğru hərəkət edərək bölgənin böyük bir hissəsini ələ keçirə bildi (Belazuri, 1987, s. 282-283). Orta əsrlərin ərəbdilli tarixçilərdən olan Belazurinin verdiyi məlumata görə, xəlifə Osmanın göstərişi ilə Salman ibn Rəbiə altı minlik qoşunla Naxçıvandan Beyləqana, oradan isə Bərdəyə aparan yeganə yolun üzərində yerləşən Biçənək aşırımı vasitəsilə Araz çayından şərqə doğru hərəkət edərək Arranın əsas şəhərlərini Xilafətə tabe etmişdi (Belazuri, 1987, s. 285-286; Vəlixanlı, 2005, s. 9; Vəlixanlı, 2016, s. 46). Salman ibn Rəbiənin ordusu ilk öncə Şimali Azərbaycan şəhəri olun Beyləqanı sülh yolu ilə ələ keçirib əhalisi ilə xərac və cizyə müqabilində can, mal və şəhərin qorunmasına dair sülh müqaviləsi bağladı (Belazuri, 1987, s. 286). Ardından Arranın paytaxtı Bərdəni bir müddət mühasirədə

saxladıqdan sonra ələ keçirə bilmişdir. Daha sonra yerli əhalinin razılığı əsasında onlarla Beyləqan əhalisi ilə bağlanan müqaviləyə bənzər müqavilə bağlamışdı (Belazuri, 1987, s. 286). Bu ərazilərin tabe edilməsindən sonra Şəmkiri ələ keçirən (Belazuri, 1987, s. 286) Salman ibn Rəbiə şərq istiqamətində hərəkət edərək Kürlə Arazın qovşağından Kürü keçib Qəbələ, Şəki, Şabran və Şirvan əhalisi ilə cizyə ödəmək şərti əsasında müqavilə bağladı (Belazuri, 1987, s. 286-287; Şərifov, 2022, s. 187-191). Xəlifə Osmanın göstərişilə 646-cı ildə Salman ibn Rəbiənin başçılığı altında növbəti dəfə Azərbaycanın şimalında yürüşə başlayan ərəblər Naxçıvan və Beyləqanın ardınca Bərdəni də ələ keçirmişdilər (Belazuri, 1987, s.286). Orta əsr ərəbdilli tarixçilərindən olan Yaqubi belə qeyd edir:

*"Xəlifə Osmanın göstərişi ilə Arran bölgəsinə əmir təyin edilən Salman ibn Rəbiə əl-Bahili oradan yola düşərək Beyləqana gəldi, əhali onları qarşılamağa çıxdı və onlarla sülh bağladı. Daha sonra Bərdəyə gələn Salman, onlarla eyni şərtlər əsasında müqavilə bağladı"* (Yaqubi, 1883, s. 194).

Ərəblərin Azərbaycana hücumları haqqında ətraflı məlumat verən İbn Əsəm əl-Kufi belə yazır:

*"Beyləqan əhalisi onun (Salman ibn Rəbiənin Ş. Ş) qarşısına çıxıb aman dilədi və ordusu üçün düşərgələr ayırdı; sonra isə pul vermək şərtilə onunla müqavilə bağladı. O da bu şərtləri qəbul etdi. Bundan sonra o, Beyləqandan çıxıb Bərdə qalasına hücum etdi. Bərdənin əhalisi onunla pul təzminatı vermək şərtilə müqavilə bağladı"* (Asem el-Kufi, 1991, s. 343-344).

Digər ərəbdilli müəlliflərdən olan Belazuri bu hücum haqqında belə deyir:

*"Salman ibn Rəbiə xəlifə Osmanın əmri ilə Arrana doğru hərəkət etdi və o, yerli əhaliyə yaşayışlarını, şəhərin divarları və onların əmlaklarının toxunulmazlığını təmin edəcəyinə və onları can və torpaq vergisindən azad edəcəyinə söz verərək, Beyləqanı sülh yolu ilə tutdu. Sonra Bərdəyə gələn Salman ibn Rəbiə, Turtur (Tərtər) çayının sahilində şəhərdən bir fərsəx uzaqda düşərgə saldı. Şəhər sakinləri darvazaları onun üzünə bağladılar. O, onlara bir neçə gün təzyiq göstərməli oldu. Salman ibn Rəbiə, bu vaxt biçini təzə qurtarmış kəndlərin üzərinə basqınlar etdi. Onlar Beyləqan sakinləri ilə olduğu kimi sülh bağlamağa məcbur oldular. Şəhər darvazalarını açdılar, o, şəhərə daxil oldu və orada (bir müddət) vaxt keçirdi. Sonra atlı dəstələri ilə oradan hərəkət etdi, Şavşan, Masvan, Ud, Xerxilan, Tabar və Arranda digər yerləri tutdu. Balasacan əhalisini islama dəvət etdi, ancaq onlar ona hərblə cavab verdilər. Lakin mübarizədə məğlub olan Balasacan əhalisinin üzərinə cizyə vergisi qoyuldu, islamı qəbul edənlər isə cizyədən azad olunaraq digər müsəlmanlar kimi sədəqə-zəkat verdi. Salman ibn*

*Rəbiə Bərdədə yerləşib qüvvə topladıqdan sonra ətraf yerlərə qoşun göndərdi, yaxın kənd və şəhərləri özünə tabe etdi"* (Belazuri, 1987, s. 285-286; Belazuri, 1927, s. 16).

Azərbaycanda İslamın yayılması prosesində ərəb qəbilələri üçün rabatların inşasının da böyük rolu olmuşdu. Xüsusilə xəzərlərlə aparılan müharibə xilafət ordusunun Şimali Azərbaycanın Bərdə, Beyləqan, Qəbələ və digər strateji cəhətdən mühüm məntəqələrində möhkəmlənmək məcburiyyəti yaradırdı (Bünyadov, 1989, s.150). Ordugah şəhərlər yerli əhalinin iştirakı və dəstəyi ilə fəaliyyət göstərdiyi üçün qısa bir zamanda vahid İslam mədəniyyəti dəyərlərinin yaşandığı və ötürüldüyü mərkəzə çevrilirdi.

Ərəbdilli tarixçilərindən olan Yaqubi "Kitab əl-buldan" adlı əsərində Azərbaycan haqqında məlumat verərkən belə yazır: "Azərbaycana getmək istəyən, Zəncandan çıxaraq, 4 mərhələ Ərdəbil şəhərinə gedir. Bu onun ilk qarşılaşdığı Azərbaycan şəhərlərindəndir. Ərdəbildən Azərbaycan mahallarından olan Bərzəndə 3 günlük yoldur. Bərzənddən Azərbaycan mahallarından olan Varsana, Varsandan əl-Beyləqana, əl-Beyləqandan Marağaya gedirsən bu, Yuxarı Azərbaycanın şəhəridir. Daha sonra müəllif Azərbaycan mahallarından olan Ərdəbil, Bərzənd, Varsan, Bərdə, Şiz, Sərat, Mərənd, Təbriz, Məyanic, Urmiya, Xuveyy və Salmas" şəhərlərini də qeyd edir (Yaqubi, 1860, s. 47; Vəlixanlı, 2016, s. 218). IX-X əsrlərin ərəbdilli müəlliflərdən olan Feqih "Kitab əl-buldan" əsərində Azərbaycanın hüdudunu Bərdədən Zəncanadək qeyd etdikdən sonra onun Bərkəri, Salmas, Muqan, Xuveyy, Varsan, Marağa, Nəriz, Təbriz, Bərzə, Saburxast, əl-Xunəc, Məyanic, Kulsurə və Bərzənd şəhərləri ilə yanaşı Beyləqanın da adını çəkir (Feqih, 1996, s. 582). Orta əsrin ərəbdilli müəlliflərindən olan İbn Xordadbeh Ərməniyəni dörd vilayətə ayıraraq belə qeyd edir:

*"Birinci Ərminiyə: əs-Sisəcan, Arran, Tiflis, Bərdə, Beyləqan, Qəbələ, Şərvan. İkinci Ərminiyə: Curzan, Suğdəbil, Bab Feyruz Qubad, əl-Lakz. Üçüncü Ərminiyə: Busfurracan, Dəbil, Sirac Tayr, Bağrəvənd, Nəşavə. Dördüncü Ərminiyə: Şimşat, Xilat, Qaliqala, Ərciş, Bacuneys. Arran, Curzan, əs-Sisəcan vilayətləri xəzərlərin, Dəbil, Nəşavə, Sirac, Bağrəvənd, Xilat, Bacuneys rumların ölkəsindədir."* (İbn Xordadbeh, 1889, s. 122-123; İbn Xordadbeh, 1967, s. 144). Gördüyümüz kimi İbn Xordadbeh Beyləqan şəhərini birinci Ərməniyəyə aid etmişdir.

Əsərin başqa bir yerində İbn Xordadbeh belə yazır: *"əl-Cərbi şimal ölkəsidir və məmləkətin dörddə birini təşkil edir. Şimal İspəhbuzu (canişin) farsların dövründə Azərbazqan (Azərbaycan) İspəhbuzu adlanırdı..."* (İbn Xordadbeh, 1967, s. 188). İbn Xordadbeh kimi Feqih də Beyləqanı birinci Ərməniyəyə aid edərək: "Birinci Ərminiyə: Beyləqan, Qəbələ, Şərvan" olaraq yazır (Feqih, 1996, s. 583). Həmçinin Feqih Beyləqan, Bərdə və Qəbələ şəhərlərinin

Sasani şahı I Qubadın (488-531) dövründə tikildiyini bildirir (Feqih, 1996, s. 584). Ərəbdilli müəlliflərdən İbn Xordadbeh və Feqihin verdiyi bu məlumatlara görə Bərdə, Beyləqan və Qəbələ şəhərlərinin əsası V əsrin axırı - VI əsrin əvvəllərində I Qubadın dövründə qoyulmuşdur. Lakin istər antik dövr mənbələri, istərsə də arxeoloji qazıntılar zamanı əldə edilən məlumatlar qeyd etdiyimiz şəhərlərin I Qubaddan əvvəl də mövcud olduğunu sübut edir (Əhmədov, 1997, s. 37). Azərbaycan vilayəti və onun şəhərlərindən bəhs edən Qudamə ibn Cəfər Sisərdən Beyləqana 10 fərsəx, Beyləqandan Buzəyə (Burə) 8 fərsəx, Əndərabdan Beyləqana 5 fərsəx, Beyləqandan Bərzəyə 6 fərsəx (Qudame ibn Cafer, 1981, s. 110), Qumamdan Beyləqana 7 fərsəx məsafə olduğunu bildirir (Qudame ibn Cafer, 1981, s. 111). X əsrin ərəbdilli müəlliflərindən olan el-Muqeddesi "Əhsən ət-Təqasim" adlı əsərində Azərbaycan şəhərlərindən olan Beyləqan haqqında belə yazır: *"Beyləqan kiçik şəhərdir, adamları çox yaxşıdır, xüsusi keyfiyyətə malik şirniyyatları vardır"* (el-Muqeddesi, 1991, s. 376). el-Muqeddesi Azərbaycan şəhərləri arasındakı məsafələr haqqında məlumat verərkən belə yazır: Marağadan başlasan Saburxasta 1 mərhələ, sonra Bərzəyə 1 mərhələ, sonra əl-Beyləqana 1 mərhələ, sonra Sisərə 1 mərhələ, sonra Van təpəsinə 1 mərhələ, sonra əl-Xubarcana 1 mərhələ, sonra əd-Dinavərə 1 mərhələdir (el-Muqeddesi, 1991, s. 382-383). X əsrin ərəbdilli coğrafiyaşünas müəlliflərindən olan İbn Havqələ görə sağlam iqlimi, bağ, meşə və meyvə cəhətdən zəngin olan Beyləqan şəhərinin çay qolları üzərində dəyirmanlar mövcud olmuşdur (İbn Havqel, 1928, s. 349). X əsrin ərəbdilli müəlliflərindən olan el-Muqeddesi "Əhsən ət-Təqasim" əsərində Beylaqanın *"kiçik şəhər olduğunu, insanlarının isə çox yaxşı və xoşniyyətli olduqlarını"* qeyd edir (el-Muqeddesi, 1991, s. 376). X əsrin ərəbdilli coğrafiyaşünaslarından olan əl-İstəxri və İbn Havqəl Beyləqanı Şəmkir, Şamaxı, Şabran, Qəbələ, Şəki və Gəncə şəhərləri kimi "böyüklükdə bir-birinə bənzəyən" kiçik şəhər adlandırır... (el-İstexri, 1870, s. 188; İbn Havqel, 1992, s. 246). Orta əsr müəlliflərinin (İbn Havqel, el-Muqeddesi, el-Hemevi, İbn Misqeveyh, İbn Xordadbeh) verdiyi məlumatlara əsasən qeyd etmək olar ki, orta əsrlərdə Azərbaycanda Bərdə, Bakı, Şamaxı, Şabran, Dərbənd, Gəncə, Beyləqan, Naxçıvan, Ərdəbil, Marağa, Mərənd kimi iqtisadi baxımdan əhəmiyyətli şəhərlər mövcud olmuşdur.

Orta əsr Azərbaycan şəhərləri haqqında məlumat verən İbn Havqəl qeyd edir ki, *"Arranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiya, Şirvan, Laican, Şabran, Qəbələ, Şəki, Cənzə, Şəmkur və Xunan isə kiçik şəhərlərdir; şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, yararlı təsərrüfat sahələrinə malikdir"* (İbn Havqel, 1992, s. 294). Müəllif bu şəhərlərin ağaclarla, taxıl zəmiləri və ərik ağacları ilə

örtüldüyünü bildirdikdən sonra əlavə edir ki, bu şəhərlərdə meyvələr çox ucuz, yeyinti məhsulları isə demək olar ki, havayıdır (İbn Havqel, 1928, s. 336). Orta əsrlərdə bu şəhərlərin əksəriyyəti öz dövrünün iqtisadi, ictimai, siyasi, mədəni və təsərrüfat əhəmiyyətinə malik yüksək səviyyəli şəhərlərindən olmuşlar.

Əbul-Qasim ibn Havqəl "Kitab surət əl-ard" adlı əsərində Azərbaycan şəhərlərinin adlarını çəkməklə kifayətlənməmiş, onların təbii şəraitinə, strateji mövqeyinə, iqtisadiyyatına və elmi mühitinə də geniş yer ayırmışdır. İbn Havqəlin bölgüsünə görə Ərdəbil, Marağa, Təbriz, Salmas, Urmiya, Uşnə, Məyanic, Xunəc, Dəxirqan, Xoy, Mərənd, Bərzənd, Varsan, Muğan, Beyləqan, Cəbirvan, Bərzəə, Dərbənd, Tiflis, Bərdic, Şamaxı, Şirvan, Laycan, Şabran, Qəbələ, Gəncə, Şəmkir və s. şəhərlər o vaxt Azərbaycanın və Arranın tərkibində olmuşdur (İbn Havqel, 1967, s. 229-242). Azərbaycan, Ərməniyə və ər-Ran vilayətlərinin məsafələrinə toxunan əl-İstəxri Bərdədən Ərdəbilə olan məsafəni belə qeyd edir: Bərdədən Yunana 7 fərsəx, Yunandan Beyləqana 7 fərsəx, Beyləqandan Varsana 7 fərsəx, Varsandan Bəlxaba 7 fərsəx, Bəlxabdan Bərzəndə 7 fərsəx, Bərzənddən Ərdəbilə isə 15 fərsəxdir (əl-İstexri, 1870, s. 192). X əsrin 80-ci illərinə aid edilən "Hüdud əl-aləm" əsərində Azərbaycan şəhərləri, məşhur qəsəbələr və bəzi qalalar Ərdəbil, Sərav, Miyanə, Xunə, Cəbrəvan, Təbriz, Marağa, Bərzənd, Muğan, Varsan, Dvin (Dəbil), Dəxərrəqan, Salmas, Xuveyy (Xoy), Bərkəri, Ərciş, Əxlat, Naxçıvan, Bidlis, Malazcird, Qaliqala, Məyyafariqin, Mərənd, Miməz, Əhər, Sincan, Qaban, Bərdə, Beyləqan, Gəncə, Şəmkur, Xunan, Tiflis, Şəki, Mübarəki (böyük kənd), Suq əl-Cibəl, Sunbatman, Sanar, Qəbələ, Bərdic, Şirvan, Xursan, Layzan, Girdman, Şavuran (Şabran), Bab əl-Əbvab və Bakı haqqında geniş məlumat verilir (Hüdud el-alem, 2002, s. 164-169; Şərifli, 2015, s. 376).

"Hüdud əl-aləm"də Bərdə və Marağanın böyük (Hüdud el-alem, 2002, s. 164, 167), Ərdəbil, Beyləqan, Təbriz, Naxçıvan, Şəki, Şabran, Girdman, Gəncə, Şəmkur, Xuveyy və Salmasın abad, xürrəm və nemətli şəhərlər olduğu göstərilir (Hüdud el-alem, 2002, s. 164, 166, 167, 168, 169). Azərbaycanda olan el-Muqeddesi Arran və onun şəhərləri haqqında belə yazır: "Arrana gəldikdə bu ərazi bütün vilayətin üçdə birini təşkil edir və dəniz ilə Araz çayı arasında bir yarım Cəzirəyə bənzəyir. Malik çayı isə vilayəti uzununa iki yerə bölür. Onun paytaxtı Bərdə, şəhərləri isə bunlardır: Beyləqan, Şəmkir, Cənzə, Bərdic, Şamaxı, Şirvan, Bakı, Şabran, Bab əl-Əbvab, Lahican, Qəbələ, Şəki, Malazkerd və Tebladır (Telavi)" (el-Muqeddesi, 1991, s. 374).

**II. Beyləqan şəhəri ərəbdilli mənbələrdə (XI-XIV əsrlər)**

XII əsrin müəlliflərindən olan əl-İdrisi Azərbaycan vilayətləri arasındakı məsafələrdən bəhs edərkən belə yazır: *"Dinavərdən Marağaya, sonra Ərdəbilə olan yol: Dinavərdən*

*Xəbarcana 27 mil, oradan Təll Vana 18 mil, oradan Sisərə 21 mil, sonra Əndəraba 12 mil, oradan Beyləqana isə 15 mil məsafə vardır"* (İdrisi, 2002, s. 669). Müəllif Varsandan Beyləqana isə 36 mil məsafə olduğunu bildirir (İdrisi, 2002, s. 822). Digər ərəbdilli müəlliflər kimi əl-İdrisi də Azərbaycanın orta əsr şəhərlərindən olan Beyləqan, Bərdə və Qəbələnin Sasani şahı I Qubad tərəfindən salındığını yazır (İdrisi, 2002, s. 828).

Əldə etdiyimiz məlumatlara görə XIII əsrin əvvəllərində monqolların hücumuna qədər Beyləqan öz əzəmət və möhtəşəmliyini qoruyub saxlamışdır. 1220-ci ildə Beyləqanı ələ keçirən moqollar, qarşılaşdıqları hər bir kəsi öldürmüş, şəhəri də talan etdikdən sonra yandırmışlar. Şəhəri tərk edən əhalinin bir qismi monqolların şəhəri tərk etməsindən sonra yenidən şəhərə qayıdaraq orada məskunlaşmışdır (el-Hemevi, 1977, I, s. 533). XIII əsrin ərəbdilli müəlliflərindən olan Zəkəriyyə əl-Qəzvini Beyləqan şəhərini Arranın çox məşhur və böyük şəhərlərindən biri olaraq qeyd edir (Zekeriyye el-Qezvini, 2000, s. 513). Bir sıra orta əsr ərəbdilli mənbələrdə Azərbaycan şəhərlərinin, xüsusilə, Bərdə, Şamaxı, Şabran, Dərbənd, Bərkəri, Məsqət, Beyləqan, Qəbələ və s. şəhərlərin Sasani şahlarının, xüsusilə Ənişirvanın dövründə inşa edilməsi haqqında məlumatlar vardır (İbn Xordadbeh, 1889, s. 122; el-Hemevi, 1977, III, s. 304). Azərbaycan, onun kəndləri və şəhərləri haqqında məlumat verən XIII əsrin ərəbdilli müəlliflərindən biri də Zəkəriyyə ibn Məhəmməd əl-Qəzvinidir. Müəllif ‘’Asar el-bilad ve axbar el-ibad’’ adlı əsərində Azərbaycan şəhərlərindən olan Beyləqan haqqında da geniş məlumat vermişdir. Beyləqan şəhərindən bəhs edən müəllif belə yazır: Arran ölkəsində hündür divarları olan möhkəmləndirilmiş böyük məşhur şəhərdir. Deyirlər ki, nə şəhərin özündə, nə də ətrafında bir dənə də daş yoxdur. Tatarlar (monqollar Ş. Ş) şəhərə yaxınlaşanda və onun divarlarının möhkəmliyini görəndə, divarları mancanaqla dağıtmaq qərarına gəldilər. Lakin daş tapmadılar ki, divarı dağıtmaq üçün istifadə etsinlər. Onlar böyük çinar ağaclarını görüb, ağacları kəsərək, parça-parça doğradılar, sonra mancanaqlara qoyub, divarı daşa basdılar. Divarda yarıqlar əmələ gəldi. Yalnız bundan sonra şəhərə daxil olaraq onu talan etdilər, əhalisini isə qırdılar. Hal-hazırda şəhər bərpa olunmuşdur (Zekeriyye el-Qezvini, 2000). Mucir əl-Beyləqani buradandır. O, çox gözəl şair idi. O, İsfəhana gəlmiş və öz şeirlərində İsfəhan əhlinin cahil olduğunu elan etmişdi. İsfəhan əmiri bunu eşitdikdə İsfəhan şairlərinə əmr etmişdi ki, bu barədə öz sözlərini desinlər. Onlar da belə edib, şeirlərini bir kitabda ona göndərmişdilər" (Zekeriyye el-Qezvini, 2000, s. 513; Zekeriyye el-Qezvini, 1848, s. 345). Monqolların Beyləqana hücumundan bəhs edən El-Hemevi belə yazır: "Beyləqan şəhəri Babul-Əbvab adı ilə tanınan Dərbəndə yaxın məsafədə Şirvana yaxın Ərməniyə torpaqlarında yerləşir. Deyirlər ki, buranı ilk dəfə Ərməniyə məliklərindən olan Qubaz əl-Mülk kəşf etmişdir. Şəhərin

əsasını isə Beyləqan ibn İrməni ibn Lanti ibn Yunan qoymuşdur. Bəziləri onu Arranın paytaxtı hesab edirdilər. Əhməd ibn Yəhya ibn Cabirin verdiyi məlumata görə, xəlifə Osman ibn Əfvanın dövründə, Arran bölgəsinə hücum edən Salman ibn Rəbiə qan tökmədən bölgəni ələ keçirmiş, yerli əhali ilə cizyə və xərac qarşılığında onlarla müqavilə bağlamışdır. Buranın tabe edilməsindən sonra Bərdəyə hücum etmişdir. Hicrətin 617-ci ilində (m.1220) bölgəyə hücum edən monqollar əhalinin əksəriyyətini öldürmüş, şəhəri yandıraraq məhv etmişlər. Onların bölgəni tərk etməsindən sonra qaçaraq canını qurtaran əhali yenidən evlərinə qayıtmışlar" (el-Hemevi, 1977, I, s. 533). XIII əsrin ərəbdilli müəlliflərindən olan El-Hemevi "Mucəm əl-buldan" əsərində bir sıra Azərbaycan şəhərlərinin, xüsusilə, Bərdə, Şamaxı, Şabran, Bab əl-Əbvab, Bərkərə, Məsqət, Beyləqan, Qəbələ və s. şəhərlərin Sasani şahlarının, xüsusilə Ənuşir-vanın dövründə bina edilməsi haqqında geniş məlumat verir (el-Hemevi, 1977, IV, s. 307). XII-XIII əsrlərin ərəbdilli tarixçilərdən olan İbn İbn el-Esir monqolların Beyləqana hücumundan bəhs edərkən belə yazır: "Cənubdan Arrana daxil olan monqollar Beyləqanı mühasirəyə alaraq işğal etdilər. İşğaldan sonra uşaq, qoca, qadın fərq etmədən hamısını qətlə yetirdilər. Beyləqanın işğalından sonra digər ərazilәri də ələ keçirən monqollar, buradakı əsirləri Beyləqana yerləşdirdilər (İbn el-Esir, 2003, X, s. 415). Monqolların Azərbaycan şəhərlərindən olan Beyləqana hücumu haqqında oxşar məlumatları XIV əsrin ərəbdilli müəlliflərdən olan İbn əl-Kəsir də "əl-Bidayə vən-Nihayə" adlı əsərində verir (İbn Kesir, 1998, XVII, s. 95). XIV əsrin müəlliflərindən olan Həmdullah əl-Qəzvini "Nüzhətəl-qulub" əsərində Beyləqan şəhəri haqqında məlumat verərkən onun xarabalıqlarından bəhs etmişdir. Müəllif adını qeyd etdiyimiz əsərdə belə yazır: "Beşinci iqlimdə yerləşən Beyləqanın uzunluq dairəsi 830321, en dairəsi isə 390551-dir. Bu şəhər də Sasani hökmdarlarından olan Firuzun oğlu I Qubad tərəfindən salınmış şəhərlərdəndir. Hal-hazırda şəhər xarabalığa çevrilmiş vəziyyətdədir. Şəhərin əksər evləri çiy kərpicdən tikilmişdir. İsti iqlimə malik olduğu üçün burada buğda, düyü və pambıq becvərilir" (Hamdullah al-Qazvini, 1919, s. 92). Orta əsrlərdə Gəncə və Şəmkirdə yun libas, Beyləqanda libas, corab, baş örtükləri, Bərdədə ipək, şabalıd, Mərənddə yun libaslar, Bərzənddə qətfə, Muğanda palaz, çuval istehsal olunaraq, başqa vilayətlərə göndərildiyi kimi, Şirvan, Xursan və Liranda (Laican) dünyada yun paltar "məhfur" adı ilə məşhur olan xalılar hazırlanaraq başqa ölkələrə ixrac edilirdi. Şəki isə özünün istehsal etdiyi gön məmulatı ilə daha çox məşhur olmuşdur (Hüdud el-alem, 2002, s. 165-169). Ərəbdilli müəlliflərdən olan Əbu Səid əs-Səmaninin (1114-1166) "Kitab əl-Ənsab" "Nəsəblər kitabı" əsərində Azərbaycan mədəniyyətinin keçdiyi inkişaf yolu geniş şərh olunmuşdur. Adı çəkilən əsərdə yüzə qədər Azərbaycan alimi haqqında məlumat verilmişdir. Burada Urmiya, Təbriz, Ərdəbil, Marağa,

Bakı, Mərənd, Beyləqan, Miyanə, Naxçıvan və s. Azərbaycan şəhərlərindən olan elmi baxımdan öz sözünü demiş şəxsiyyətlər haqqında geniş məlumatlar mövcuddur (es-Semani, 1912, IV, s. 148-153). "Cami əd-duvəl" adlı əsərdə Arran ərazisi haqqında belə bir məlumat verilir: *"Arrana gəldikdə, bu məşhur ölkədir ki, cənubdan Azərbaycanla, qərbdən Ərməniyə ilə, şərqdən və cənubdan Azərbaycanla, şimaldan isə Qabq dağları ilə sərhəddir. Onun əsas şəhərləri bunlardır: Nəşavə, Bab əl-Əbvab, Gəncə, Şəmkir, Beyləqan və Sərir Allandır"* (Bünyadov, 1989, s. 138; Minorsky, 1953, s. 45).

**Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, ərəbdilli mənbələrin öyrənilməsi bir daha təsdiq edir ki, ilk ərəb yürüşləri dövründə ələ keçirilmiş Azərbaycanın qədim və orta əsr şəhərlərindən biri də Beyləqan şəhəri olmuşdur. İqtisadi, ictimai, siyasi, elmi, mədəni və təsərrüfat baxımından digər şəhərlərdən geri qalmayan Beyləqan, erkən orta əsrlərdə Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri hesab olunurdu. Bu baxımdan ərəbdilli mənbələrdə Beyləqan şəhəri haqqında geniş məlumatlar mövcuddur. Digər şəhərlər kimi Beyləqan şəhəri də Erkən Xilafət dövründə yerli feodallar və gəlmə ərəblər tərəfindən idarə edilirdi. Feodalların bəziləri əldə etdikləri gəlirləri sələmə verərək böyük gəlir toplayırdılar. Feodalların torpağında yaşayan və torpağı becərən kəndlilərdən torpaq vergisi, bu işlərə nəzarət edən mübaşirlər (feodal nümayəndələri) tərəfindən toplanırdı. Beləliklə, ərəbdilli mənbələr Azərbaycan tarixinin və onun şəhərlərinin öyrənilməsi üçün ən mühüm mənbələrdən hesab olunur. Gələcəkdə ərəbdilli mənbələrin daha geniş şəkildə araşdırılması Azərbaycan və onun şəhərləri haqqında yeni faktların meydana çıxmasına və bununla da Azərbaycan tarixinin daha da dərindən öyrənilməsinə şərait yarada bilər.

**Ədəbiyyat Siyahı**

Ağayev, R. (2017). *Ərəb Xilafəti dövründə Azərbaycanın əhalisi.* Turxan NPB.

Belazuri, Ebul-Hasan Ahmed ibn Yahya ibn Cabir. (1866). *Futuh el-Buldan.* Metbaati Biril.

Belazuri, Ebul-Hasan Ahmed ibn Yahya ibn Cabir. (1987). *Fütuh el-Buldan.* Darul-kutubul-ilmiyye.

Belazuri, Ebul-Hasan Ahmed ibn Yahya ibn Cabir. (1927). *Fütuh el-buldan.* P.K. Juze.

Bünyadov, Z. (2007). *Azərbaycan VII-IX əsrlərdə*. Şərq-Qərb.

Bünyadov, Z. (1989). *Azərbaycan VII-IX əsrlərdə*. Elm.

Asem El-Kufi. (1991). *Kitab el-Futuh.* VII-VIII, Darul-Edva.

Ebu Bekr Ahmed ibn el-Feqih. (1996). *Kitab el-Buldan*. Bimetbaati Biril.

Ebu Abdullah Muhammed ibn Ahmed el-Muqeddesi. (1991). *Ehsenet-taqasim fi merifətil-eqalim.* Mektebeti medbuli.

Ebul-Ferec Qudama ibn Cafer. (1981). *Kitab el-xerac.* Darur-raşid.

Ebu İshaq İbrahim ibn Muhammed el-İstexri. (1870). *Kitab mesalik el-memalik.* Bimetbea Biril.

Əhmədov, Q. (1997). *Qədim Beyləqan.* Azərnəşr.

Əliyeva, N. (2017). *Azərbaycanda İslam mədəniyyəti (VII-XIII).* Elm-təhsil.

Əliyeva, N. (2020). *Mucəm əl-buldan əsərində Azərbaycan və Qafqaz.* Elm və təhsil.

Es-Samani. (1912). *Kitab el-Ensab.* Leyden neşri.

Hamdullah al-Qazvini. (1919). *Nuzhet el-qulub* (trc. G. Le Strange). Biril.

*Hüdud el-Alem min el-meşriqi ilel-meğrib.* (2002). ed-Darus-saqafiyyeti lin-naşri.

İbn el-Esir. (2003). *El-Kamil fit-Tarix.* Darul-kutub el-ilmiyye.

İbn Havqel, Ebul Qasim Nasibi. (1928). *El-Mesalik vel-memalik.* Metbaati Biril.

İbn Havqel, Ebul Qasim Nasibi. (1992). *Suret el-arz.* Darus-sadr.

İbn Havqel, Ebul Qasim Nasibi. (1967). *Kitab suret el-arz.* Leyden neşri.

İbn Xordadbeh. (1889). *Kitab el-Mesalik vel-memalik.* Bimetbaati Biril.

İbn Xordadbeh. (1967). *Kitab el-Mesalik vel-memalik.* Leyden neşri.

İbn Kesir. (1998). *El-Bidaye ven-Nihaye.* Darul-hicr.

İdrisi. (2002). *Nuzhetul-muştaq fi ixtirail-afaq.* Mektebetis-saqafetid-diniyyeti.

Minorsky, V. (1953). *Studies in Caucasian Histors*. Cambridge.

Mustafa, R. (2019). *Tiflis əmirliyi.* Turxan NPB.

Şərifli, M. (2015). *IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri.* Turxan NPB.

Şərifov, Ş. (2022). *Erkən xilafət dövründə Azərbaycanda ictimai-siyasi və mədəni həyat.* Birol Group Mmc.

Teberi, Ebu Cafer Muhammed ibn Cerir. (1967). *Tarix el-umem vel-muluk.* Darul-kutub.

Yaqubi, Ehmed ibn Yaqub ibn Cafer ibn Vehb. (1883). *Tarixi-Yaqubi.* Metbaati-Biril.

Yaqubi, Ehmed ibn Yaqub ibn Cafer ibn Vehb. (1860). *Kitab el-buldan.* Metbaati-Biril.

Yaqut el-Hemevi. (1977). *Mucem el-buldan.* Darus-sadr.

Vəlixanlı, N. (2005). *Naxçıvan - ərəblərdən monqollaradək (VII-XII əsrlər).* Elm.

Vəlixanlı, N. (2016). *Azərbaycan VII-XII əsrlərdə.* Elm və təhsil.

Vəlixanlı, N. (1974). *IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında.* Elm.

Vəlixanlı, N. (1993). *Ərəb xilafəti və Azərbaycan.* Azərnəşr.

Zekeriyye el-Qezvini. (1848). *Asar el-bilad ve axbar el-ibad.* Leyden.

Zekeriyye el-Qezvini. (2000). *Asar el-bilad ve axbar el-ibad.* Derus-sadr.

Aşurbeyli, S. (1983). *Qosudarstvo Şirvanşaxov (VI-XVI vv.).* Elm.